# MALİYYƏ HESABATLARI

| | |
|---|---|
| Audit aparılmış müəssisənin adı | BOKT "KREDEX" QSC |
| VÖEN | 1303322541 |
| İcraçı: | Qurbanov Abbasəli Şükür oğlu |
| Hesabatın verilmə tarixi : | 19.05.2024 |
| Müqavilə : | M-28774 14/03/2024 |
| Auditor Rəyi : | M-28774 |

**BAKI-2024**

**AUDİTOR RƏYİ**
**AUDITOR OPINION**
**SERIYA M-28774**

**MÜSTƏQİL AUDİTORUN HESABATI**
**BOKT "KREDEX" QSC -nin Səhmdarlarına və İdarə Heyətinə:**

**VÖEN: 1303322541**

*Rəy*

Biz BOKT "KREDEX" QSC -nin (bundan sonra "Kredit təşkilatı") 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabalardan, habelə əsas mühasibat prinsiplərinin və digər izahedici məlumatların xülasəsindən ibarət olan Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları 31 dekabr 2023-cü il tarixinə Kredit təşkilatının maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Fəaliyyətin fasiləsizliyinə dair əhəmiyyətli qeyri-müəyyənlik**

Biz diqqəti Kredit təşkilatının maliyyə hesabatlarına dair izahedici qeydlərində olan koronavirus infeksiyasının yayılması şəraitində və bunun iqtisadi nəticələri ilə bağlı şirkətin fəaliyyətinin davam etdirilməsinə dair qeyri-müəyyənlik faktorlarına yönəltmək istərdik. İzah edici qeydlərdə hazırki şəraitdə Kredit təşkilatının öz fəaliyyətinin fasiləsizliyini təmin etmək sahəsində əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması göstərilmişdir. Bu şəraitlə əlaqədar biz öz mülahizələrimizə dəyişikliklər etməmişik.

***Rəy üçün əsas***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün müəyyən etdiyi "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq biz Təşkilatdan asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Maliyyə Hesabatları üzrə Rəhbərliyin Məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına zamin yaradan zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Təşkilatı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Kredit təşkilatının fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Rəhbərlik Təşkilatın maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

***Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

Bizim məqsədimiz saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz:

• Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları

işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların biləərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.

• Təşkilatın daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxil nəzarət sistemi üzrə məlumat əldə edirik.

• Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.

• Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Təşkilatın fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Təşkilatın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.

• Maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

M-28774
20 may 2024-cü il
Azərbaycan Respublikası, Bakı

"Analitik Audit Konsaltinq" MMC-nin

Direktoru- auditoru: Qurbanov A.Ş.

**Mündəricat**

Müstəqil Auditor Hesabatı ........................................ 1
Maliyyə Vəziyyəti haqqında Hesabat ........................................ 2
Gəlirlər haqqında Hesabat ........................................ 3
Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat ........................................ 4
Kapitalında Dəyişikliklər haqqında Hesabat ........................................ 5

Maliyyə Hesabatları üzrə Qeydlər ........................................ 6-23

| | |
|---|---|
| 1 | Giriş |
| 2 | Maliyyə hesabatlarının tərtib edilməsinin əsasları |
| 3 | Əsas uçot siyasətləri |
| 4 | Pul vəsaitləri və onların ekvivalentləri |
| 5 | Müştərilərə verilmiş kreditlər |
| 6 | Qiymətli investisiya kağızları |
| 7 | Torpaq, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər |
| 8 | Digər aktivlər |
| 9 | Müştərilərin hesabları |
| 10 | Maliyyə institutlarından borc götürülmüş vəsaitlər |
| 11 | Digər passivlər |
| 12 | Qaytarıla bilən iştirakçı kapitalı |
| 13 | Xalis faiz gəlirləri |
| 14 | Haqq və komissiya gəlirləri və xərcləri |
| 15 | İşçi heyəti üzrə xərclər |
| 16 | Ümumi inzibati xərclər |
| 17 | Mənfəət vergisi xərci |
| 18 | Risklərin idarə edilməsi |
| 19 | Şərti öhdəliklər |
| 20 | Maliyyə aktivləri və öhdəlikləri: ədalətli dəyərlər və uçot təsnifatı |
| 21 | Əlaqəli tərəflərlə əməliyyatlar |

Məbləğlər min manat ilə göstərilmişdir    1 ABŞ dolları = 1,700 manat.

## 31 dekabr 2023-ci il tarixinə Maliyyə Vəziyyəti haqqında Hesabat

| AKTİVLƏR | Qeyd | 2023 | 2022 |
|---|---|---|---|
| Nağd vəsait və hesab qalıqları | 5 | 25,15 | 44,99 |
| Müştərilərə verilən kreditlər | 6 | 6629,30 | 4644,29 |
| Müştərilərə verilən kreditlər üzrə mümkün zərərlərin ödənilməsi uçün xüsusi ehtiyat | 6 | -97,64 | -78,19 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 7 | 63,02 | 12,92 |
| Digər aktivlər | 8 | 147,85 | 164,27 |
| **Aktivlərin cəmi** | | **6767,68** | **4788,28** |
| **Öhdəliklər** | | | |
| Bankların kreditləri, | 9 | 2 647,73 | 2743,68 |
| Mərkəzi idarəetmə orqanlarının vəsaitləri | 9 | 0,00 | 6,88 |
| Digər öhdəliklər | 10 | 3096,84 | 1125,64 |
| **Öhdəliklərin cəmi** | | **5744,57** | **3876,20** |
| **K A P I T A L** | | | |
| Nizamnamə kapitalı | 11 | 300,00 | 300,00 |
| Keçmiş illərin xalis mənfəəti (zərəri) | 11 | 0,00 | 0,00 |
| Cari ilin xalis mənfəəti (zərəri) | 11 | 723,11 | 612,07 |
| Kapital ehtiyatı | 11 | 0,00 | 0,00 |
| Ehtiyatlar | 11 | 0,00 | 0,00 |
| **Kapitalın cəmi** | | **1023,11** | **912,07** |
| **Öhdəliklər və kapital** | | **6767,68** | **4788,28** |

Maliyyə hesabatları Rəhbərlik tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır:

Direktor: Xəlilzadə Mikayıl Salamat oğlu

Baş Mühasib: Meydiyeva Xatirə Balaşah qızı

**31 dekabr 2023-cü** ***il tarixində bitən il üzrə Mənfəət və Zərər Hesabatı***

| | | 2023 | 2022 |
|---|---|---|---|
| Faiz gəlirləri, cəmi | 12 | 1973,21 | 1536,60 |
| Faiz xərcləri cəmi: | 12 | -401,89 | -323,01 |
| **Xalis faiz gəliri** | | **1571,32** | **1213,59** |
| Digər qeyri-faiz gəlirləri | 13 | **93,95** | 80,75 |
| Qeyri-faiz xərcləri, cəmi | 13 | **-739,93** | -527,81 |
| İşçilər üzrə xərclər | 14 | -411,38 | 290,97 |
| Amortizasiya | 15 | -11,01 | 6,09 |
| Ümumi və inzibati xərclər | 15 | -137,17 | 168,76 |
| Digər qeyri-faiz xərcləri | 15 | -180,37 | 61,99 |
| Vaxtı keçmiş kreditlər üzrə ehtiyatlara ayırmalar | | -19,44 | 0,00 |
| **Mənfəət vergisi xərcindən əvvəl mənfəət** | | **905,90** | **766,53** |
| **Mənfəət vergisi xərci** | **16** | **-182,79** | **-154,45** |
| **Vergilər ödənildikdən sonra xalis mənfəət** | | **723,11** | **612,08** |
| **İl üzrə mənfəət** | | **723,11** | **612,08** |

Maliyyə hesabatları Rəhbərlik tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır:

Direktor: Xəlilzadə Mikayıl Salamat oğlu

Baş Mühasib: Meydiyeva Xatirə Balaşah qızı

AZƏRBAYCAN RESPUBLİKASI Bank Olmayan Kredit Təşkilatı «KREDEX» Qapalı Səhmdar Cəmiyyəti AZERBAIJAN REPUBLIC

*31 dekabr 2023ci il tarixində bitən il üzrə Pul Vəsaitlərinin Hərəkəti Hesabatı*

| **ƏMƏLIYYAT FƏALIYYƏTI ÜZRƏ PUL VƏSAITLƏRININ HƏRƏKƏTI:** | | **2023** | **2022** |
|---|---|---|---|
| Alınmış faiz gəlirləri | | 1978,04 | 1551,84 |
| Ödənilmiş faiz xərcləri | | -385,23 | -330,43 |
| Alınmış digər gəlirlər | | 93,95 | 80,75 |
| Müştərilərə verilmiş xalis kreditlər | | -1989,84 | -396,13 |
| Qabaqcadan ödəmələr | | 133,41 | -36,72 |
| Ödənilmiş əmək haqqı və sosial ayırmalar | | -411,38 | -290,97 |
| Ödənilmiş inzibati və digər əməliyyat xərcləri | | -317,55 | -171,27 |
| Ödənilmiş mənfəət vergisi | | -116,99 | -56,11 |
| **Əməliyyat fəaliyyətindən əldə edilən xalis pul vəsaitləri** | | **-1015,59** | **350,97** |
| **İNVESTISIYA FƏALIYYƏTI ÜZRƏ PUL VƏSAITLƏRININ HƏRƏKƏTI:** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | | -61,10 | -7,62 |
| Əmlak və avadanlıqların satışından daxil olan gəlir | | 0,00 | 0,00 |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **-61,10** | **-7,62** |
| | | | |
| **MALIYYƏLƏŞDIRILMƏ FƏALIYYƏTI ÜZRƏ PUL VƏSAITLƏRININ HƏRƏKƏTI:** | | | |
| Digər əməliyyatlar üzrə gələcək dövrün gəlirləri | | 482,25 | 0,00 |
| Digər əməliyyatlar üzrə hesablanmış ödəniləcək məbləğlə | | -193,69 | -377,01 |
| Borc vəsaitlərinin əldə edilməsi | | 1499,84 | 440,24 |
| Borc vəsaitlərinin geri ödənilməsi | | -119,48 | 0,00 |
| Ödənilmiş divident | | -612,08 | -346,56 |
| **Maliyyələşdirilmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **1056,84** | **-283,34** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis (azalma)/artım** | | **-19,84** | **-3,90** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, dövrün əvvəlinə** | | **44,99** | **48,89** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, dövrün sonuna** | | **25,15** | **44,99** |

Maliyyə hesabatları Rəhbərlik tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır:

Direktor: Xəlilzadə Mikayıl Salamat oğlu

Baş Mühasib: Meydiyeva Xatirə Balaşah qızı

AZƏRBAYCAN RESPUBLİKASI Bank olmayan kredit təşkilatı «KREDEX» Qapalı Səhmdar Cəmiyyəti AZERBAIJAN REPUBLIC

Məbləğlər min manat ilə göstərilmişdir 1 ABŞ dolları = 1,700 manat.

## 31 dekabr 2023-ci il tarixində bitən il üzrə İştirakçı Kapitalında Dəyişikliklər Hesabatı

| | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməm iş mənfəət/zərər | CƏMİ |
|---|---|---|---|---|
| **31.12.2020-ci il tarixinə qalıq** | **300,00** | **0.00** | **-73,31** | 226,69 |
| Düzəlişlər | 0,00 | 0,00 | 0,00 | 0,00 |
| Qaytarila bilən iştirakçı kapitalında artma | 0,00 | 0,00 | 0,00 | 0,00 |
| Ödənilmiş divident | 0,00 | 0,00 | 0,00 | 0 |
| Xalis mənfəət | 0,00 | 0,00 | 420,07 | 420,07 |
| | | | | |
| **31.12.2021-ci il tarixinə qalıq** | **300,00** | **0,00** | **346,76** | 646,76 |
| | | | | |
| Düzəlişlər | 0,00 | 0,00 | 0,00 | 0,00 |
| Qaytarila bilən iştirakçı kapitalında artma | 0,00 | 0,00 | 0,00 | 0,00 |
| Ödənilmiş divident | 0,00 | 0,00 | -346,77 | -346,77 |
| Xalis mənfəət | 0,00 | 0,00 | 612,08 | 612,08 |
| | | | | |
| **31.12.2022-ci il tarixinə qalıq** | **300,00** | **0,00** | **612,07** | 912,07 |
| | | | | |
| Düzəlişlər | 0,00 | 0,00 | 0,00 | 0,00 |
| Qaytarila bilən iştirakçı kapitalında artma | 0,00 | 0,00 | 0,00 | 0,00 |
| Ödənilmiş divident | 0,00 | 0,00 | -612,07 | - 612,07 |
| Xalis mənfəət | 0,00 | 0,00 | 723,11 | 723,11 |
| | | | | |
| **31.12.2023-cü il tarixinə qalıq** | **300,00** | **0,00** | **723,11** | **1023,11** |

Maliyyə hesabatları Rəhbərlik tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır:

Direktor: Xəlilzadə Mikayıl Salamat oğlu

Baş Mühasib: Meydiyeva Xatirə Balaşah qızı

AZƏRBAYCAN RESPUBLİKASI Bank Olmayan Kredit Təşkilatı «KREDEX» Qapalı Səhmdar Cəmiyyəti * AZERBAIJAN REPUBLIC

## AUDİT HESABATI

**Bakı şəhəri** **17 may 2024-cü il**

**Qeyd 1: Əsas fəaliyyət növləri**

Bank olmayan kredit təşkilati "KREDEX" QSC (bundan sonra "Kredit təşkilatı") 17/07/2013-cü il tarixdə 1303322541 saylı VÖEN alaraq dövlət qeydiyyatına alınmışdır.

BOKT"KREDEX"QSC Azərbaycan Mərkəzii Bankının ("AMB") 08 iyun 2021-ci il tarixli BKT-19 saylı lisenziyası əsasında fəaliyyət göstərir. Kredit təşkilatının əsas fəaliyyəti Azərbaycan Respublikasında kommersiya və fərdi müştərilər üçün kreditlərin verilməsindən ibarətdir.

BOKT"KREDEX"QSC-nin hüquqi ünvanı aşağıdakı kimidir: Azərbaycan Respublikası, Baki şəh.,Yasamal rayonu,Hüseyn Cavid pr.,ev 522A,N.30.

31 dekabr 2023-cü il vəziyyətinə BOKT"KREDEX"QSC-nin 25 işçisi vardır.

31 dekabr 2023-cü il tarixə BOKT"KREDEX"QSC-nin müştərilərin sayı 8860 nəfər fiziki şəxsdir

**Qeyd 2: BOKT"KREDEX"QSC-nin əməliyyat mühiti**

Azərbaycan iqtisadiyyatı önəmli dərəcədə neft qiymətlərindən asılıdır və iqtisadiyyatın bütün sahələri, o cümlədən bank sektoru, neft qiymətlərindəki dəyişikliklərin təsirinə məruz qalır. Azərbaycan Respublikasında iqtisadi sabitliyin gələcək perspektivləri böhranının Azərbaycan iqtisadiyyatına təsirini azaltmaq üçün Hökumətin həyata keçirdiyi iqtisadi tədbirlərin effektivliyindən, eləcə də Kredit təşkilatının nəzarətində olmayan hüquqi, normativ və siyasi hadisələrdən xeyli dərəcədə asılıdır.

Bundan əlavə, iqtisadi şərait maliyyə bazarlarında fəaliyyətin həcmini məhdudlaşdırmaqda davam edir. Maliyyə vasitələrinin bazar qiymətləri, könüllü alıcı və satıcıların iştirak etdiyi səmərəli aktiv bazarda müəyyən edilə bilən dəyərini əks etdirməyə bilər. Bu səbəbdən, Rəhbərlik zəruri hesab etdikdə, ədalətli dəyərlərin ən dəqiq təxminlərini əks etdirmək məqsədilə bazar qiymətlərini dəqiqləşdirmək üçün mövcud bazar məlumatlarından istifadə etmişdir.

## Qeyd 3: Hesabatların tərtib edilməsinin əsasları

Maliyyə hesabatlarının tərtib edilməsinin əsasları:- Hazırkı maliyyə hesabatları, Beynəlxalq Mühasibat Standartları Şurasının dərc etdiyi Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS"), o cümlədən Beynəlxalq Mühasibat Standartları Komitəsinin dərc etdiyi Beynəlxalq Mühasibat Standartlarına ("BMS") və Daimi Şərhlər Komitəsinin dərc etdiyi Şərhlərə uyğun olaraq tərtib edilmişdir.

Bu maliyyə hesabatları həmin mühasibat qeydləri əsasında hazırlanmış və BMHS-ə uyğun şəkildə düzəldilmişdir

### Qiymətləndirmə əsasları

Maliyyə Hesabatları ilkin dəyər prinsipi əsasında hazırlanmışdır, bir istisna ilə ki, satıla bilən maliyyə aktivlərin qiyməti ədalətli dəyər, əsasında təqdim olunur.

Maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan manatı ilə ölçülmüşdür.

Başqa cür göstərilmədiyi hallarda, manat ilə ifadə edilən maliyyə məlumatları ən yaxın minliyə kimi yuvarlaqlaşdırılmışdır.

Maliyyə hesabatlarının hazırlanmasında, hesabat tarixində aktiv və passivlərin qeyd olunmuş məbləğlərinə, şərti aktiv və passivlərin açıqlanmasına və hesabat dövründə gəlir və xərclərin qeydə alınmış məbləğlərinə təsir edən təxminlərin, eləcə də fərziyyələrin istifadə edilməsi tələb olunur. Bu təxminlər Rəhbərliyin cari hadisələr və fəaliyyət barəsində mövcud biliklərinə əsaslansa da, faktiki nəticələr sonda həmin təxminlərdən fərqlənə bilər.

## Qeyd 4: Mühasibat uçotunun mühüm prinsipləri

Hazırkı maliyyə hesabatlarının hazırlanmasında aşağıdakı mühüm mühasibat prinsipləri tətbiq edilmişdir:

**Pul vəsaitləri və onların ekvivalentləri.** Pul vəsaitləri və onların ekvivalentlərinə bir gün ərzində nağd vəsaitlərə çevrilə bilən məbləğlər daxildir. Bloklaşdırılmış məbləğlər pul vəsaitləri və onların ekvivalentlərindən çıxarılmışdır.

Pul vəsaitlərinə və onların ekvivalentlərinə əskinaslar və sikkə pullar, banklarda saxlanılan məhdudlaşdırılmamış hesab qalıqları (nostro hesablar) və ödəniş müddəti üç aydan az olan yüksək likvidli maliyyə aktivləri daxildir ki, onların ədalətli dəyərinin dəyişmə riski çox aşağıdır və Bank tərəfindən qısamüddətli öhdəliklərin idarə olunmasında istifadə edilir.

**Verilmiş kreditlər və avanslar və kredit zərərləri üzrə ehtiyatlar.**

Kredit təşkilatı tərəfindən bilavasitə borcalana və ya sub-iştirakçı agentinə pul ayırmaqla verilmiş kreditlər, əməliyyat aktivləri kimi qeydə alınan dərhal və ya qısa müddət ərzində satılmaq niyyəti ilə verilmiş kreditlərdən fərqli olaraq, Kredit təşkilatının verdiyi kreditlər kimi təsnif edilir. Bütün kreditlər və avanslar borcalanlara pul verildiyi zaman qeydə alınır.

**Kreditlərlə bağlı digər öhdəliklər.**

Kredit təşkilatı, fəaliyyətin adi gedişində akkreditivlər və zəmanətlər kimi kreditlərlə bağlı digər öhdəliklərlə üzləşir. Bu cür öhdəliklərdə zərərlərin yaranması ehtimal edildikdə, Kredit təşkilatı onlar üzrə xüsusi ehtiyat yaradır.

**Satış üçün nəzərdə tutulan qiymətli investisiya kağızları.**

Likvidlik ilə bağlı, yaxud faiz dərəcələrində, valyuta məzənnəsində və ya qiymətli kağızların dəyərlərində dəyişikliklərin edilməsi zərurətinə cavab olaraq hər an satıla bilən və qeyri-müəyyən müddət ərzində saxlanması nəzərdə tutulan qiymətli investisiya kağızları satış üçün nəzərdə tutulan kimi təsnif edilir. Rəhbərlik qiymətli investisiya kağızlarının müvafiq təsnifatını alqı zamanı müəyyən edir. Satış üçün nəzərdə tutulan qiymətli investisiya kağızlarının ədalətli dəyərindəki dəyişikliklər nəticəsində yaranan realizasiya olunmamış gəlirlər və zərərlər, iştirakçı kapitalında dəyişikliklər hesabatında qeyd olunur. Satış üçün nəzərdə tutulan qiymətli investisiya kağızları satıldıqda, ədalətli dəyər üzrə yığılmış müvafiq düzəlişlər, satış üçün nəzərdə tutulan qiymətli investisiya kağızları üzrə gəlir kimi (zərəri çıxmaqla) mənfəət və zərər hesabatında qeyd olunur. Satış üçün nəzərdə tutulan qiymətli investisiya kağızları üzrə əldə edilən faiz, mənfəət və zərər hesabatında satış üçün nəzərdə tutulan qiymətli investisiya kağızları üzrə faiz gəlirləri kimi qeyd olunur. Satış üçün nəzərdə tutulan qiymətli investisiya kağızlarının bütün müntəzəm alqıları və satışları, Kredit təşkilatı aktivi almaq və ya satmaq öhdəliyini üzərinə götürdüyü əməliyyat tarixində qeydə alınır.

**Torpaq, tikili və avadanlıqlar.**

Binalar və avadanlıqlar, yığılmış köhnəlməni və lazım olduqda ehtimal olunan zərər üçün ehtiyatları çıxmaqla maya dəyərində və ya yenidən qiymətləndirilmiş dəyərdə qeydə alınır. Yenidənqiymətləndirmə, aktivin xalis qalıq dəyərini bazar dəyərinə oxşar dərəcədə yenidən qiymətləndirmək üçün nəzərdə tutulmuşdur. Binalar və avadanlıqların satışından əldə olunan gəlirlər və zərərlər, onların balans dəyərinə istinadən müəyyən edilir və satış üzrə gəlir/(zərər)

müəyyənləşdirilərkən nəzərə alınır. Təmir və saxlanma xərcləri, xərclər çəkildikdə mənfəət və zərər hesabatına silinir. İcarəyə götürülmüş binanın təmir xərcləri icarə müddətinə uyğun olaraq mənfəət və zərər hesabatına silinir.

**Köhnəlmə.** Köhnəlmə bərabər aşınma prinsipinə əsasən binalar və avadanlıqlara onların təxmin edilən faydalı xidmət müddəti ərzində aşağıdakı kimi hesablanmışdır:

| | |
|---|---|
| Kompüterlər və rabitə avadanlıqları | ildə 25% |
| Mebel, qurğular və sair avadanlıqlar | ildə 20% |
| Qeyri-maddi aktivlər | ildə 10% |

**Qeyri-maddi aktivlər**

Alınmış qeyri-maddi aktivlərin uçotu yığılmış amortizasiyanın və dəyərsizləşmə ilə bağlı zərərlərin məbləğinin silinmiş dəyəri əsasında aparılır.
Proqram təminatı üzrə əldə edilmiş lisenziyalar həmin proqram təminatının alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclər əsasında kapitallaşdırılır.
Amortizasiya qeyri-maddi aktivlərin hesablanmış faydalı istifadə müddətləri üzrə düz xətt prinsipi əsasında mənfəət və ya zərərlərə aid edilir. Onların təxmin edilən faydalı istifadə müddəti 5 – 10 il təşkil edir.

**Əməliyyat lizinqləri.**

**Kredit təşkilatı** icarəçi kimi çıxış etdikdə, cəmi icarə ödənişləri, o cümlədən icarə müqaviləsinə xitam verildikdə ödəniləcək ödənişlər icarəçi tərəfindən icarə müqaviləsinin müddəti ərzində bərabər aşınma prinsipinə əsasən mənfəət və zərər hesabatına silinir.

**Mənfəət vergiləri.** Vergilər, Azərbaycan Respublikasının hal-hazırda qüvvədə olan qanunvericiliyinə uyğun olaraq hazırkı maliyyə hesabatlarında əks olunmuşdur. İl üzrə mənfəət və zərər hesabatında göstərilən mənfəət vergisi xərci, mənfəət vergisi və təxirə salınmış mənfəət vergisindəki dəyişiklikləri əks etdirir.
Cari mənfəət vergisi, hesabat tarixinə qüvvədə olan vergi dərəcələrindən istifadə etməklə il üzrə ehtimal olunan vergiyə cəlb ediləcək mənfəət üzərindən hesablanır. Mənfəət vergisindən başqa bütün vergilər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi, balans aktivləri və passivləri metodundan istifadə etməklə, aktiv və passivlərin vergi əsasları və onların maliyyə hesabatları məqsədləri üçün balans dəyərləri arasında yaranan bütün müvəqqəti fərqlər üçün hesablanır. Təxirə salınmış vergi aktivləri o dərəcədə qeydə alınır ki, bu müvəqqəti fərqlərin istifadəsi üçün gələcəkdə kifayət qədər vergiyə cəlb ediləcək mənfəətin mövcud olacağı ehtimal edilsin. Təxirə salınmış vergi aktivləri və passivləri, balans hesabatı tarixində tam və ya əsas etibarilə qəbul olunmuş vergi dərəcələri əsasında aktivin realizasiya və ya passivin ödəniləcəyi dövrdə tətbiq ediləcək vergi dərəcələrindən istifadə edərək hesablanır.

**Faiz gəlirləri və xərcləri.**

Faiz gəlir və xərcləri, mənfəət və zərər hesabatında bütün faizli aktivlər üçün faktiki alqı qiyməti əsasında effektiv gəlir metodundan istifadə etməklə hesablama metodu ilə qeydə alınır. Faiz gəlirlərinə, sabit gəlirli qiymətli investisiya kağızları üzrə əldə edilmiş kuponlar və güzəştli borc vərəqələri üzrə hesablanmış diskont və mükafat, eləcə də diskont edilmiş digər vasitələr daxildir. Kreditlərin qaytarılması şübhəli olduğu halda, o, onların dəyəri əldə oluna bilən dəyərə qədər endirilir.

Buna görə, faiz gəlirləri sonradan əldə oluna bilən dəyəri qiymətləndirmək məqsədilə pul vəsaitlərinin gələcək hərəkətini diskont etmək üçün istifadə edilmiş faiz dərəcəsinə əsasən qeydə alınır.

Haqqlar, komissiyalar və digər gəlir və xərc maddələri xidmətlər göstərildikdə hesablama metoduna əsasən qeydə alınır. Silinməsi ehtimal edilən kreditlər üçün kreditlərin verilməsi üzrə yaranan haqqlar təxirə salınır (müvafiq birbaşa xərclərlə birlikdə) və kredit üzrə effektiv gəlirin təshih edilməsi kimi qeydə alınır.

Dividend gəliri dividendlər elan edildiyi tarixdə mənfəət və ya zərərlərdə əks olunur.

**Seqmentlər üzrə təhlil**

Əməliyyat seqmenti Kredit təşkilatının biznes fəaliyyətindən gəlir və xərc yaradacaq bir hissəsidir, bu halda ayrıca maliyyə məlumatı əldə oluna bilən seqmet üzrə resursların paylanması və onun performansının müəyyən edilməsi haqqında qərar verilməsi üçün əsas qərar verən şəxs müntəzəm olaraq əməliyyat nəticələrini gözdən keçirir.

**Xarici valyuta əməliyyatları.**

Xarici valyutada denominasiya edilən əməliyyatlar həmin əməliyyat günü qüvvədə olan valyuta məzənnəsi ilə qeydə alınır.

Xarici valyuta ilə aparılan əməliyyatlardan yaranan məzənnə fərqləri həmin gün qüvvədə olan valyuta məzənnəsindən istifadə etməklə mənfəət və zərər hesabatına daxil edilir.Xarici valyutada denominasiya edilən monetar aktiv və passivlər, AMB-nin balans tarixinə olan rəsmi valyuta məzənnəsi ilə Azərbaycan Manatına çevrilir.

Ədalətli dəyərlə qiymətləndirilən borc qiymətli kağızlar və digər monetar maliyyə aktivləri üzrə məzənnə fərqləri, xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə gəlirlər və zərərlərə aid edilir. Dilinq əməliyyatları və ya satış üçün nəzərdə tutulan qiymətli kağızlar kimi qeyri-monetar maddələr üzrə məzənnə fərqləri, ədalətli dəyər üzrə gəlir və ya zərərin bir hissəsi kimi qeydə alınır.

31 dekabr 2023-cü il tarixə və 31 dekabr 2022-ci il tarixə xarici valyuta qalıqlarının çevrilməsində istifadə edilən valyuta məzənnəsi belə olmuşdur: 1ABŞ dolları = 1,7000 manat

Hal-hazırda, Azərbaycan Manatı digər ölkələrdə sərbəst dönərli valyuta hesab edilmir.

**Əvəzləşdirmə.**

Balans hesabatında maliyyə aktiv və passivlərinin əvəzləşdirilməsi və alınan xalis məbləğin hesabatda əks olunmasına yalnız o zaman icazə verilir ki, qeydə alınmış məbləğlərin əvəzləşdirilməsi üçün hüquqi əsas və xalis əsasda və ya eyni zamanda aktivi realizasiya etmək və ya passivi ödəmək niyyəti mövcuddur.

**Ehtiyatlar.**

Ehtiyatlar aşağıdakı hallarda qeydə alınır: Bokt hal-hazırda keçmiş hadisələrin nəticəsində hüquqi və ənənəvi öhdəliyə malik olduqda, öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi səmərə yaradan vəsaitlərin çıxdaş edilməsinin tələb olunması ehtimalı olduqda və öhdəlik məbləğinin etibarlı qiymətləndirilməsi mümkün olduqda.

**İşçilərə sərf olunan xərclərlə bağlı ayırmalar.**

**Kredit təşkilatının** işçilərə verilən əmək haqqları ilə bağlı sosial müdafiə fonduna köçürmələri, çəkildikdə xərc kimi tanınır və işçilərə sərf olunan xərclər kimi qeyd edilir.

**Yeni və yenidən işlənmiş standartların və onlara dair şərhlərin tədbiqi**

Aşağıda qeyd olunan yeni və ya düzəliş edilmiş standartlar və şərhlər ilk dəfə 01 yanvar 2020-ci il tarixindən etibarən başlayan maliyyə hesabat dövrlərində tətbiq olunur:

**Əhəmiyyətlilik meyarı** – 1 saylı MUBS-ya və 8 saylı MUBS-ya düzəlişlər (Qüvvədə olma tarixi: 1 yanvar2020)).

MUBSK I saylı MUBS Maliyyə Hesabatlarının Təqdim Edilməsi və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və Maliyyə Hesabatı üçün Konseptual Çərçivə daxilində əhəmiyyətlilik anlayışını sabit şəkildə təriflındirən 8 saylı MUBS Uçot Siyasəti, Uçot Qiymətləndirmələrində Dəyişikliklər və Səhvlərə, məlumatın nə dərəcədə əhəmiyyətli olduğunu dəqiqləşdirən düzəlişləri, eləcə də 1 saylı MUBS-ya əsasən maddi əhəmiyyətli hesab olunmayan məlumatlara dair dəyişiklikləri tətbiq etdi. Düzəlişlər, xüsusilə:

• Gizli məlumatlara dair tövsiyələrin bu məlumatı təqdim etməmə və ya yanlış təqdim etmə hallarının eyni səviyyədə əhəmiyyətli olduğunu və müəssisənin əhəmiyyətliliyi bütövlükdə maliyyə hesabatları kontekstində qiymətləndirdiyini izah edir;

***Biznesin tərifi - 3 saylı MHBS-ya düzəlişlər** (Qüvvəyə minmə tarixi: 1 yanvar 2020)*

